*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (1) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:29.12.2023*
*Kabul tarihi |Accepted:10.02.2024*
*Yayın tarihi |Published:25.02.2024*

**Rena U. Qurbanova**

https://orcid.org/0000-0003-4210-7239
*Lecturer, Nakhchivan University, Department of General History and International Relations, Azerbaijan, qurbanovarena962@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Qurbanova, R. U. (2024). Ermənistanın İşğal və Blokada Siyasətinin Naxçıvan Muxtar Respublikasının Sosial-İqtisadi İnkişafına Təsirləri (1991-1993-cü İllər). *Akademik Tarih ve Düşünce Dergisi, 11* (1), 745-759.

# Ermənistanın İşğal və Blokada Siyasətinin Naxçıvan Muxtar Respublikasının Sosial-İqtisadi İnkişafına Təsirləri (1991-1993-cü İllər)

***Xülasə***

*Məqalədə XX əsrin 90-cı illərində Ermənistanın yürütdüyü işğal və blokada siyasətinin Azərbaycanın Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatına təsirləri araşdırılmışdır. Həm iqtisadi, həm də sosial sahədə yaranmış problemlər, əhalinin üzləşdiyi çətinliklər, onların aradan qaldırılması istiqamətində atılan addımlar ayrı-ayrılıqda təhlil edilmiş, o zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olmuş görkəmli dövlət xadimi Heydər Əliyevin bu istiqamətdə fəaliyyətləri mötəbər mənbələr əsasında tədqiq edilmişdir. Bu məqsədlə araşdırmalar zamanı ən müxtəlif ümumi və xüsusi tədqiqat metodlarından, o cümlədən tarixi genetik, kontent analiz metodlarından istifadə edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində ölkə səviyyəsində yaranmış iqtisadi və sosial böhran Naxçıvan Muxtar Respublikasına, o cümlədən buradakı əhalinin iqtisadi vəziyyətinə və sosial statusuna ciddi təsirlər göstərmişdir. Ermənistanın hərbi təcavüz siyasəti və blokada tətbiq etməsi Naxçıvan Muxtar Respublikasının energetika, nəqliyyat və digər sahələrdə böyük iqtisadi potensialına ciddi zərbə vurmuşdur. Lakin Naxçıvan əhalisi həm iqtisadi, həm də sosial şərtlərin ağırlığına təmkinlə yanaşmış, Ermənistanın hərbi təcavüzünə qarşı mərdliklə dayanmışdır.*

***Açar sözlər:*** *Naxçıvan, işğal, blokada, sosial, iqtisadi, böhran*

# The Effects of Armenia's Occupation and Blockade Policy on the Socio-Economic Development of Nakhchivan Autonomous Republic (1991-1993)

***Abstract***

*The article analyzes the impact of Armenia's occupation and blockade policy in the 90s of the 20th century on the socio-economic life of the Nakhchivan Autonomous Republic of Azerbaijan. The*

*problems arising both in the economic and social spheres, the difficulties faced by the population and the steps taken to eliminate them are analyzed separately, and the activities of the famous statesman Heydar Aliyev, who was the Chairman of the Supreme Majlis, are discussed. The situation of the Nakhchivan Autonomous Republic at that time was analyzed on the basis of reliable sources. For this purpose, various general and specialized research methods were used, including historical genetics and content analysis. It is concluded that the economic and social crisis that emerged at the national level as a result of the occupation of Azerbaijani territories by Armenia has had a serious impact on the Nakhchivan Autonomous Republic, including the economic situation and social status of the population there. Armenia's policy of military aggression and blockade has seriously affected the great economic potential of the Nakhchivan Autonomous Republic in energy, transportation and other fields. However, the people of Nakhchivan responded to the gravity of both economic and social conditions with composure and bravely opposed Armenia's military aggression.*

***Keywords:*** *Nakhchivan, occupation, blockade, social, economic, crisis*

**Giriş**

1988-ci ildən başlayan Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü, eyni zamanda Naxçıvan Muxtar Respublikasını blokada vəziyyətində saxlaması muxtar respublikanın iqtisadi təhlükəsizliyi üçün ciddi təhdidlər yaradırdı. Sovet İttifaqının süqutu keçmiş ittifaq respublikaları arasında iqtisadi əlaqələrin kəsilməsinə səbəb olmuşdu. Bu demək olar ki, bütün keçmiş müttəfiq respublikaların iqtisadiyyatına olduğu kimi Azərbaycanın iqtisadiyyatına da mənfi təsir göstərmişdi. Azərbaycanın həssas və nisbətən məhdud iqtisadi resurslara malik olan regionu kimi Naxçıvanda vəziyyət daha gərgin idi. Ermənistanın Azərbaycana qarşı başladığı müharibə isə ümumiyyətlə Naxçıvanla ölkənin digər regionları arasında əlaqəninin quru ərazi vasitəsilə qurulmasına imkan vermirdi. Ermənistan Naxçıvana qarşı blokada siyasəti həyata keçirməklə Azərbaycanda vəziyyəti daha da gərginləşdirməyə və işğal siyasətini genişləndirməyə çalışırdı. Hərbi təcavüz və blokadanın yaratdığı sosial problemlər də kifayət qədər ağır idi. Məlumdur ki, dünyanın harasında baş verməsindən asılı olmayaraq hərbi təcavüz və blokada ölkələrin və cəmiyyətlərin sosial vəziyyətinə dərin təsir göstərən bir hadisədir. Bu təsirlər geniş və çoxşaxəli idi. Məqalənin yazılması zamanı ən müxtəlif ümumi və xüsusi tədqiqat metodlarından istifadə edilmişdir. XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində baş verən siyasi proseslərlə sosial-iqtisadi proseslər arasında səbəb-nəticə əlaqəsinin öyrənilməsi məqsədilə tarixi genetik metoddan istifadə edilmişdir. Ölkə və muxtar respublika səviyyəsində cərəyan edən sosial-iqtisadi proseslər arasında bənzərlik və fərqlərin üzə çıxarılmasından ötrü tarixi müqayisəli metod tətbiq olunmuşdur. Həmin dövrə aid arxiv sənədlərindən və mətbuat materiallarından istifadə zamanı kontent-analiz metodu tətbiq edilmişdir.

## 1. Təhlil və müzakirə

XX əsrin 80-ci illərinin sonlarında Azərbaycan və Ermənistan arasında yaranan gərginliklər fonunda Naxçıvan MSSR-i ölkənin ərazisinin digər hissələri ilə birləşdirən, Ermənistan ərazisindən keçən dəmiryolu xəttinin işində tez-tez fasilələr yaranırdı. Bu fasilələrin yaranmasına səbəb Ermənistan ərazisində meydana çıxan silahlı birləşmələrin dəmiryoluna hücumları, sərnişin qatarlarını saxlayaraq soyğunçuluqla məşğul olmaları, azərbaycanlı maşinist və sərnişinlərin həyatı üçün təhdid yaratmaları idi. Dəmiryoluna hərəkətin dayandırılması ilk dəfə 1988-ci ildə baş vermiş, bundan bir müddət sonra isə Muxtar Respublikanı Azərbaycanın digər hissələri ilə birləşdirən avtomobil yolu tamamilə bağlanmışdır (Naxçıvan MR Dövlət Arxivi, Fond № 2 , siyahı № 6, iş № 1039, vərəq – 17-19). Həmin dövrdə qatarların hərəkətinin mühafizəsi SSRİ Daxili İşlər Nazirliyinin qüvvələrinə tapşırılmışdır. Onlar əsasən Qərbi Zəngəzurdan – Mehri bölgəsindən keçən qatarların hərəkətini təmin etməyə cavabdeh idilər. Lakin görünən o idi ki, onlar bunu təmin edə bilmirdilər. 1989-cu ilin əvvəllərindən başlayaraq Qorçuvan-Mehri xətti istiqamətindən keçən sərnişin və yük qatarlarına hücumlar artmışdı. Naxçıvandan olan yüzlərlə azərbaycanlı sərnişinlərə xəsarət yetirilmiş, qatarların hərəkət qrafiki pozulmuşdu (Məmmədov, 2011). Rus müəllifi V. Şironin yazır ki, Erməni Milli Hərəkatının (“Hayots Hamazqayin Şardzum”) nəzarətində olan silahlılar Ermənistanın inzibati sərhədini keçən kimi qatarları atəşə tutur və qarət edirdilər (Shironin, 1997). 1989-cu ilin iyul ayına qədər Bakı ilə Naxçıvanı bir-biri ilə birləşdirən dəmiryolu xəttinin Ermənistan ərazisindən keçən hissəsində qatarların hərəkətinə 27 dəfə maneə törədilmişdi. Nəhayət iyulun 29-da Azərbaycandan Ermənistana gedən qatarlar erməni silahlıları tərəfindən hücumlara məruz qaldığına görə onların hərəkəti dayandırılmışdı (Əhmədov, 2012). Ermənistandakı hərbi dəstələr Naxçıvanı blokadaya almaq üçün Bakı-Şərur sərnişin və yük qatarlarına basqınlar edir, onlara atəş açır, hərəkət etmələri üçün müxtəlif üsul və vasitələrlə maneələr yaradırdılar. İyul ayının əvvəllərindən etibarən Ermənistan tərəfindən Naxçıvandan Bakı, Gəncə,Yevlax və Naftalan istiqamətində hərəkət edən sərnişin avtobuslarının qarşısı kəsilmiş, onların hərəkətinə maneələr yaradılmışdır (Naxçıvan tarixi, 2015). 1989-cu ilin iyul ayının 12-də Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi Heydər İsayevin Ermənistanın bir sıra rəhbər işçiləri ilə Sədərək postunda keçirdiyi görüşdə avtomobil və dəmiryolu nəqliyyatının işində yaranan problemlərin həlli ilə bağlı aparılan müzakirələr heç bir nəticə verməmişdi. Həmin ayın 17-də Naxçıvan MSSR Nazirlər Sovetinin sədri Afiyəddin Cəlilovla Ermənistan SSR Daxili işlər naziri İ.Arutunyan arasında maneəsiz hərəkətin təmin edilməsi ilə bağlı razılıq əldə edilsə də, ermənilər buna əməl etməmişdilər (Məmmədov, 2011). 1990-cı il martın 24-də isə Şərur-Bakı sərnişin qatarı Mehri rayonundan keçərkən ermənilər tərəfindən partladılmışdı (Hacıyev, 2012). Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etməyə başlamasından

sonra Ermənistan rəhbərliyi ilə aparılan danışıqlar nəticəsində müəyyən dövrlərdə Bakıdan muxtar respublikaya gələn qatarların hərəkətini təmin etmək mümkün olmuşdur. Məsələn, 1991-ci ilin sentyabrında ermənilərin Mehri rayonu ərazisində törətdikləri təxribatlar nəticəsində dayanan dəmiryolunun fəaliyyəti danışıqlardan sonra noyabr ayında qismən bərpa edilmiş, Bakıdan Naxçıvana noyabrın 1-də yük qatarı, noyabrın 5-də isə sərnişin qatarı Mehri ərazisindən keçərək gəlmişdir. Lakin cəmi bir ay sonra 1991-ci il dekabrın 16-da Mehri dəmiryolu stansiyasında Bakıdan-Naxçıvan istiqamətində hərəkət edən qatarın sərnişinlərini girov götürmüşdülər (Qayıdış 1990-1993, 2008). Beləliklə, SSRİ-nin süqutu ərəfəsində faktiki olaraq, həm keçmiş ittifaqın digər respublikaları, həm də ölkənin əsas hissəsi ilə əlaqələrin kəsilməsi nəticəsində Naxçıvan MSSR-də ağır iqtisadi durum yaranmışdı. Muxtar respublikada 1989-cu ilin birinci yarısında istehsal müəssisələri nəzərdə tutulandan 1,1 milyon rubl az məhsul istehsal etmiş, tikinti təşkilatları 1,5 milyon rubl dəyərində məhsulu ala bilməmişdir (Naxçıvan tarixi, 2015). Muxtar respublikanın iqtisadi cəhətdən təmin edilməsi Ermənistan təcavüzündən müdafiə edilməsinə təsir göstərən ən vacib amillərdən biri idi. Lakin yaranmış şəraitdə Azərbaycan hökuməti Naxçıvan Muxtar Respublikası ilə bağlı yetərli addımlar atmırdı. Bu təkcə obyektiv səbəblərdən deyil, həm də subyektiv səbəblərdən qaynaqlanırdı. Belə şəraitdə muxtar respublika parlamenti çalışırdı ki, bir çox addımlar atsın. 1990-cı ilin sentyabrında muxtar respublika Ali Məclisinə keçirilən seçkilərdən sonra bu işlər daha da intensivləşdi. Bir çox tədqiqatçılar iqtisadi blokada şəraitində yaşayan Naxçıvanın düşmən qarşısında duruş gətirməklə bərabər, həm də bir çox iqtisadi problemlərini həll etməsində şəxsiyyət – Heydər Əliyev amilinin rolunu xüsusi qeyd edirlər (Məmmədov, 2011). 1991-ci il sentyabrın 3-də Heydər Əliyevin muxtar respublika parlamentinin sədri seçilməsindən sonra Ali Məclisin müzakirəsinə çıxarılan ilk məsələlərdən biri Naxçıvanın iqtisadi həyatında meydana çıxmış ağır vəziyyətlə bağlı olmuşdur. Sentyabrın 5-də keçirilən iclasda böhran vəziyyətindən çıxmaq tədbirləri müzakirə edilmişdir (Əliyev, 1997).

Ali Məclis Naxçıvan Muxtar Respublikasında azad iqtisadi zonaların yaradılması və sərhədboyu ticarətin inkişaf etdirilməsi ilə bağlı məsələləri aktiv şəkildə müzakirə edirdi. Muxtar Respublikanın parlamenti tərəfindən 1991-ci ilin iyulun 1-ə qədər yerli hökumətə - Nazirlər Kabinetinə bununla bağlı kompleks tədbirlər hazırlayaraq məclisin müzakirəsinə çıxarılması tapşırılmışdı. Ali Məclisdə fəaliyyət göstərən xalq istehlakı, ticarət və əhaliyə xidmət, siyasi və xarici əlaqələr, turizm komissiyaları bu barədə məsələləri geniş müzakirə edirdi. Ali Məclis tərəfindən Nazirlər Kabinetinə ərzaq qıtlığının aradan qaldırılması ilə bağlı zəruri tədbirlərin görülməsindən ötrü tapşırıqlar verilmişdi. Belə tədbirlərdən biri kimi, qonşu ölkələrlə mal mübadiləsinin həyata keçirilməsi nəzərdə tutulurdu (Azadlıq qəzeti, 1991, 4 aprel).

Sənaye sahəsində tənəzzül özünü daha çox göstərirdi. İ. Hacıyev yazır ki, həmin illərdə Naxçıvanın əsas inkişaf sahələrinda istehsal sürətlə azalmışdı. 1989-1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, kənd təsərrüfatında istehsal olunan məhsulun cəm həcmi 25,5 faiz, heyvandarlıqda isə 34 faiz azalmışdı (Hacıyev, 2016). Ermənistanın hərbi təcavüzünün başlamasından sonra Naxçıvanda fəaliyyət göstərən istehsal müəssisələrinin bir çoxu fəaliyyətini dayandırmış, iş yerləri bağlanmışdı. 1990-cı ilin əvvəllərində Ordubadda istehsal müəssisələrinin fəaliyyətində xeyli geriləmələr qeydə alınmış, Babək rayonu ərazisində olan demək olar ki, bütün sənaye müəssisələri işini dayandırmışdı. Tədqiqatlar göstərir ki, sonrakı illərdə vəziyyət daha da pisləşmişdi. 1990-cı ildə muxtar respublikada 52 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 1991-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü və blokadası səbəbindən onlardan 8-i fəaliyyətini tamamilə dayandırmışdı (Naxçıvan tarixi, 2015). Məsələn, Sovet dövründə muxtar respublikada ən böyük istehsal müəssisələrindən və iş yerlərindən biri olan Naxçıvan Elektrotexnika zavodunun iqtisadi əlaqələrin pozulması və blokadası nəticəsində istehsal fəaliyyəti 1990-cı ildən tənəzzülə uğramağa başlamış, 1992-ci ildə tamamilə dayanmışdı. Baxımsızlıq və 1993-cü ilin mart ayında zavod ərazisində ayrı-ayrı qruplaşmalar arasında baş vermiş silahlı toqquşmalar nəticəsində zavodun istehsal binalarına, santexnika qurğularına, avadanlıqlarına külli miqdarda ziyan dəymişdi (Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), Fond 3189, siyahı 9, iş 27). Ermənistanın hərbi təcavüzünün ağır nəticəsində “Badamlı” və “Sirab” mineral sular zavodlarının da iqtisadi əlaqələri zəifləmiş, onların fəaliyyətində durğunluq yaranmışdı. 1992-1993-cü illərdə bir ilə yaxın müddətdə bu zavodların fəaliyyəti dayansa da, bu müsəssisələrin yenidən fəaliyyətə başlamaları üçün addımlar atılmışdı. Nəhayət 1993-cü ilin iyulunda hər iki zavod yenidən fəaliyyətə başlamış, onların istehsal etdikləri məhsulları ixrac etmələrinə şərait yaratmaqdan ötrü bəzi işlər həyata keçirilmişdi. Bu müəssisələrin müntəzəm işini təmin etməkdən ötrü Naxçıvan şüşə qablar zavodu da işə salınmış, İran İslam Respublikasının ərazisi vasitəsi ilə bu zavoda xammal daşınmağa başlanmışdı (Ədalət qəzeti, 1993, 27 iyul). XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində muxtar respublikada ağır iqtisadi və sosial böhranın yarandığı şəraitdə bir çox kənar qüvvələr bundan istifadə etməyə çalışmışdır. Ərzaq qıtlığının yaşandığı, çörək üçün növbələrin yarandığı Naxçıvana XX əsrin 90-cı illərinin əvvəllərində çox ucuz qiymətlərlə müəmmalı şəraitdə spirtli içkilərin daxil olması diqqəti cəlb etmişdi. Muxtar respublikanın xüsusi xidmət orqanlarının araşdırmaları zamanı aydın olmuşdur ki, bu spirtli içkilər müxtəlif Avropa ölkələrində qeyri-standart şəkildə istehsal edilən Rusiya məhsullarıdır. Heydər Əliyev həmin dövrdə gənclərin mənəvi-psixoloji tərbiyəsinə, fiziki sağlamlığına mənfi təsir göstərə biləcək bu cür halların qarşısının alınması barədə qəti göstərişlər vermişdir.

Ermənistanın hərbi təcavüzü muxtar respublikada kənd təsərrüfatının inkişafına da ciddi maneələr yaradır, zərbə vururdu. Ermənilərin atəşə tutduqları istiqamətlərdə əkin-biçin işlərinin həyata keçirilməsi demək olar ki, mümkünsüz idi. Digər tərəfdən Ermənistan ərazisindən silahlı hərbi dəstələr tez-tez sərhədboyu zonalardakı yaylaqlara və otlaqlara hücum edir, faktiki olaraq heç bir müdafiə vasitələrinə malik olmayan çobanları və fermerləri təhdid edir, onların mal-qarasını sürüb aparırdılar. Məsələn, 1991-ci ilin sentyabrında Naxçıvan Ali Məclisində aparılan müzakirələrdən aydın olur ki, həmin dövrdə erməni hərbi dəstələri Ordubad rayonunun Ermənistanla həmsərhəd ərazilərindəki çobanlara qorxu gələrək 1000 başdan artıq mal-qaranı sürüb aparmışdılar. O zaman muxtar respublikanın hakimiyyət orqanlarının Ermənistanın Daxili İşlər Nazirliyi ilə apardığı danışıqlar nəticəsində məlum olmuşdur ki, həmin heyvanlardan 400 başı Qafan rayonu ərazisində tapılmışdır. Sentyabr ayında erməni hərbi dəstələrinin Şahbuz rayonunun Şada və Yuxarı Remeşin (Güney Qışlaq) kəndlərinə hücumları nəticəsində 1083 baş qoyun (Məmmədov, 2011), 250-dən artıq davar aparılmışdır (Yaqubov, 1995). Naxçıvanda isə blokada səbəbindən iqtisadi və sosial durum gərginləşirdi. Vəziyyət elə bir həddə gəlib çatmışdı ki, 1992-ci ilin yanvarından etibarən Naxçıvan Muxtar Respublikasında çörək talonlarının tətbiq edilməsinə başlanılmışdı. Un qıtlığı ilə əlaqədar olaraq muxtar respublikada adambaşına gündəlik çörək norması yarım kiloqram müəyyən edilmişdi. Muxtar respublikada taxıl ehtiyatı tükənməkdə idi (Yaqubov, 1995). Blokadanı yarmaq üçün İran və Türkiyə ilə sərhəddə keçidin təmin edilməsi vacib idi. Bu məqsədlə İranla aparılan danışıqlar nəticəsində bir sıra ilkin razılaşmalar əldə olundu. 1991-ci il aprel ayının 16-da Naxçıvan MR-in Nehrəm kəndində İranla sərhəddən sadələşmiş üsulla keçmək üçün körpünün açılışı olmuşdur.

Yeni şəraitdə mühüm məsələlərdən biri Türkiyə ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında əlaqəni təmin edəcək Araz çayı üzərində körpünün tikilməsi ilə bağlı idi. Bunun çox böyük siyasi, iqtisadi və mədəni əhəmiyyəti var idi. Körpünün tikilməsi ilə bağlı əvvəlcədən Türkiyə Cümhuriyyəti ilə SSRİ arasında da razılaşma olmuşdur (Azadlıq qəzeti, 1991, 4 aprel). SSRİ-nin adından Azərbaycan SSR Nazirlər Sovetinin sədri H. Həsənov, Türkiyə Cümhuriyyətinin adından isə bu ölkənin nəqliyyat naziri Cengiz Tuncər saziş imzalamışdılar. Bu sənəddə sərhəd çayı olan Araz üzərində avtomobil və dəmiryol körpülərinin tikilməsi, Sovet-Türkiyə sərhədində buraxılış məntəqəsinin yaradılması nəzərdə tutulurdu (Yaqubov, 1995). Sazişdə nəzərdə tutulan məsələlərin praktiki həlli məqsədi ilə 1991-ci ilin yanvarında Türkiyə Cümhuriyyətinin dəmiryolları, limanlar və aeroportların tikintisi departamentinin baş direktoru Aytəkin Akgünün rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvanda olmuş, Azərbaycan SSR ilə Türkiyə Respublikası arasında əməkdaşlıq haqqında növbəti protokol imzalanmışdı. Aparılan müzakirələr çərçivəsində körpülərin yeri və baş podratçı müəyyənləşdirilmişdi.

1991-ci ilin mart-aprel aylarında körpünün tikinti layihəsinin hazırlanması üçün Naxçıvan Muxtar Respublikasına gürcü layihəçilər gətirilmişdi (Azadlıq qəzeti, 1991, 4 aprel). Həmin ilin oktyabr ayının 29-da Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında müvəqqəti körpünün açılışı olmuşdur. Bu münasibətlə keçirilən mitinqdə Heydər Əliyev çıxış edərək bildirmişdir ki, Naxçıvanın ağır günlərində açılan körpü həyati əhəmiyyət kəsb edir. Həmin ilin yanvarın 30-da Heydər Əliyev Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə muxtar respublikaya gəlmiş nümayəndə heyətini qəbul edərkən də muxtar respublikada hərbi təcavüz nəticəsində yaranmış iqtisadi problemlərdən bəhs etmiş, belə şəraitdə gömrüklərin aktiv fəaliyyət göstərməsinin vacibliyi qeyd edilmişdir. Həmin görüşdə Naxçıvan-Türkiyə gömrükxanasının istifadəyə verilməsi məsələləri müzakirə edilmişdir (Kəlbizadə, 2012).

Tezliklə, Türkiyə Cümhuriyyətinə vətəndaşların gediş-gəlişini təmin etmək məqsədi ilə Sədərək körpüsünün tikintisinə başlanıldı. İki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək körpüsü 1992-ci ilin 28 mayında Türkiyənin o zaman baş naziri olan Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev tərəfindən açıldı. Elə həmin gün Sədərək gömrükxanası yaradıldı. 1992-ci il mayın 28-də isə Sədərəkdə Araz çayı üzərində yeni salınmış körpünün rəsmi açılışı oldu. 1992-ci ilin avqust ayının 24-də Sədərək gömrükxanası rəsmi keçid qapısı elan edildi. Bununla da, Naxçıvanın blokadası qismən də olsa yarılmış oldu.

Muxtar respublikaya rəhbərlik etdiyi dövrdə Ermənistanın hərbi təcavüzü nəticəsində meydana çıxmış böhranlı vəziyyəti aradan qaldırmaq üçün Heydər Əliyev İran İslam Respublikasının da gücündən və imkanlarından istifadə etməyə çalışırdı. 1991-ci il iyunun 12-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi sahədə əməkdaşlıq yaratmaq haqqında memorandum imzalanmasına və memoranduma əsasən blokada şəraitində olan Naxçıvana İrandan qaz və elektrik enerjisi verilməsinin nəzərdə tutulmasına baxmayaraq məsələ məhz Heydər Əliyevin Naxçıvanda apardığı danışıqlar nəticəsində real həllini tapdı.

1992-ci il yanvarın 7-də İran İslam Respublikasının neft naziri Qulamrza Ağazadə Naxçıvan şəhərində Muxtar Respublika Ali Məclisinin sədri Heydər Əliyev tərəfindən qəbul edildi [14, s.256]. Həmin görüş zamanı Mərənd-Naxçıvan qaz kəmərinin çəkilməsi ilə bağlı razılığın əldə olunması muxtar respublika üçün həyati əhəmiyyət kəsb edirdi. Bu blokada şəraitində olan, Ermənistan ərazisindən vaxtilə keçən enerji xətləri kəsilmiş Naxçıvanın enerji təchizatında yaranmış böhranlı vəziyyətin aradan qaldırılmasına xidmət edirdi.

Muxtar Respublikanı iqtisadi böhrandan xilas etmək üçün Heydər Əliyev İran İslam Respublikasının o zamankı prezidenti Haşimi Rəfsəncani ilə də danışıqlar aparmış, 1992-ci il avqust

ayının 22-də İran Xarici İşlər Nazirliyinin dəvəti ilə Heydər Əliyev prezident Rəfsəncaninin şəxsi "Boinq-727" təyyarəsində Tehrana səfər etmişdi. Səfər zamanı aparılan danışıqlar əhalinin qarşılıqlı gediş-gəliş məsələlərinin asanlaşdırılmasına, müştərək bazarın açılmasına gətirib çıxarmışdı. Avqustun 24-də İranın ali vəzifəli şəxsləri ilə söhbət və danışıqlardan sonra "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında" protokol imzalandı. Protokolun 13-cü maddəsində nəzərdə tutulan məsələlərdən biri İranın Naxçıvan Muxtar Respublikasının qaz təchizatında iştirakı ilə bağlı idi. Qazın ötürülməsi, paylanması və istifadəçilərə verilməsinin İranın Naxçıvanda yaradılacaq şirkətinin vasitəsilə həyata keçirilməsi nəzərdə tutulurdu. Bundan başqa Naxçıvanın maye qaza olan tələbatını nəzərə alaraq İran İslam Respublikası Naxçıvana ayda yüz ton maye qaz verməli idi (Naxçıvan MR Dövlət Arxivi, Fond № 2, Siyahı № 6, İş № 1039).

Tehran protokolunda Culfa keçid məntəqəsinin təkmilləşdirilməsi ilə yanaşı, iki ölkə arasında Şahtaxtı-Poldəşt körpüsünün tikintisi ilə bağlı razılaşma da əldə olundu. Tez bir zamanda inşasına başlanılan körpü 1992-ci ilin dekabr ayının 3-də istifadəyə verildi. Heydər Əliyev və İranın Kooperasiya naziri Q. Şafeyi açılış mərasimində iştirak etdilər. Elə həmin gün İrandan Naxçıvana 40 meqavat gücündə elektrik enerjisinin verilməsi münasibətilə Arazkənarı stansiyada təntənəli mitinq oldu. Heydər Əliyev mitinqdə çıxış etdi.

İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün təkcə həmsərhəd olan qonşu ölkələrin – Türkiyə və İranın imkanlarından istifadə olunmurdu. Böhranlı vəziyyətlərdə Heydər Əliyev ölkənin digər şəhər və rayonlarındakı imkanlardan da ümumi məqsədlər naminə yararlanmağa çalışırdı. Məsələn, 1992-ci ildə Naxçıvanda əhalinin un ehtiyatının tükənməsi muxtar respublikada yetərincə çətin vəziyyət yaratmış, bununla bağlı Ali Məclis Sədri Heydər Əliyevin tapşırığı ilə Naxçıvan MR DMK-sının əks-kəşfiyyat şöbəsi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir (Xalq qəzeti, 2023, 04 avqust). Şöbənin sabiq rəisi, həmin dövrdə Heydər Əliyevin xüsusi nümayəndəsi olmuş U. Qurbanov bununla bağlı yazır:

*"Ali Məclisin Sədri məni növbəti dəfə yanına çağırmışdı. Mənə, sabaha un ehtiyatımız tükənir, əhali çörək problemi ilə üzləşəcək, təcili tədbirlər görmək lazımdır, – dedi. Hələ də respublika rəhbərliyi Naxçıvana ögey münasibət göstərir, Ayaz Mütəllibov isə "Naxçıvan Azərbaycanın korbağırsağıdır, onu kəsib atmaq lazımdır", – deyirdi... İki saatdan sonra Gəncə Şəhər Fövqəladə Müdafiə Qərargahının rəisi Çingiz Sadıxovun yanında idim. Vəziyyəti ona bildirdim. Hökumət telefonu ilə nazir Zakir Abdullayevə zəng edib, Gəncənin fondundan 60 ton unun Naxçıvana verilməsini xahiş etdi"* (Qurbanov, 2023).

Bu cür köməkliklər təbii ki, muxtar respublikanın həmin dövrdə ayaqda qalmasında əhəmiyyətli rol oynamışdı. Hərbi təcavüz və blokadanın yaratdığı sosial problemlər də kifayət qədər ağır idi. Məlumdur ki, dünyanın harasında baş verməsindən asılı olmayaraq hərbi təcavüz və blokada ölkələrin və cəmiyyətlərin sosial vəziyyətinə dərin təsir göstərən bir hadisədir. Bu təsirlər geniş və çoxşaxəlidir. Bunlardan ilki əhalinin ölüm və yaralanmalarıdır. Müharibələr insanların həyatına son qoyur və bir çox insanı yaralayır. Bu, ailələr üçün tarixi bir faciədir və yaxınlarının itkisi onların psixoloji vəziyyətinin zəifləməsinə səbəb ola bilər. Təkcə 1992-ci ilin may-iyun aylarında Ermənistanla Naxçıvan Muxtar Respublikasının sərhəd ərazilərində gedən ağır döyüşlər nəticəsində Azərbaycan tərəfdən 43 nəfər həlak olmuş, 160 nəfər ağır yaralanmış, 14 min nəfər isə öz yurd-yuvalarından didərgin düşmüşdür (Yaqubov, 1995).

Hərbi təcavüz və blokada şəraiti əhalinin miqrasiyasına da əsaslı şəkildə təsir göstərir. Ermənistanın Naxçıvan Muxtar Respublikasına hərbi təcavüzü səbəbindən əhalinin digər ölkələrə və ölkənin digər rayonlarına emiqrasiyası baş verməsə də, muxtar respublika daxilində müəyyən miqrasiya prosesləri baş vermişdir. Məsələn, Kərki kəndinin əhalisinin köçməsinin, Sədərəyə aktiv hücumlar zamanı əhalinin yerdəyişməsinin kifayət qədər ciddi sosial fəsadları olmuşdur. 1992-ci ilin mayında döyüşlər zamanı Sədərək əhalisinin bir qismi atəş məsafəsindən nisbətən uzaqda yerləşən düzənlik ərazidə çadırlarda məskunlaşmışdılar. Belə məskunlaşma əhali arasında xəstəliklərin daha tez yayılmasına səbəb olurdu. Qida, təmiz su təminatında problemlər var idi. Həmin dövrdə Naxçıvana gəlmiş BMT nümayəndələri Sədərəkdə sakinlərlə görüşərkən yaranmış acınacaqlı vəziyyətin birbaşa şahidi olmuşdular (Azadlıq qəzeti, 1992, 10 iyun). Eyni zamanda Qarabağ və Şərqi Zəngəzur ərazisində yerləşən rayonların Ermənistan tərəfindən işğalı bu bölgələrdə yaşamış azərbaycanlı əhalinin bir qisminin də Naxçıvana gəlməsinə səbəb olmuşdur. Məsələn, 1993-cü ildə Kəlbəcərin işğalından sonra bu rayonun bir qrup sakini məhz Naxçıvan Muxtar Respublikasına gəlmişdir. Heydər Əliyevin göstərişi ilə muxtar respublikanın sosial inkişaf və müdafiə fondundan Naxçıvana gələn Kəlbəcər qaçqınlarının hər birinə 10 min rubl məbləğində yardım edilmişdir (Qayıdış 1990-1993, 2008). Hərbi təcavüz təhsil sistemində də problemlərə yol açmışdı. Həmin dövrdə sərhədboyu yaşayış məntəqələrinə hücum edən erməni silahlı birləşmələrinin əsas hədəflərindən biri məhz məktəblər olurdu. İlk növbədə məktəb binaları digər evlər və tikililər ilə müqayisədə daha hündürmərtəbəli və nəzərəçarpan olduğu üçün raket zərbələrinə məruz qalırdı, digər tərəfdən isə bir çox hallarda müəyyən təhlükəsizlik xüsusiyyətləri nəzərə alınaraq ağır döyüşlər dövründə hərbi qərargahlar məktəblərin zirzəmisində yerləşdirilirdi. Bu isə düşmənin buranı hədəf almasına səbəb olur, bu da öz növbəsində təhsil prosesinin dayanması ilə nəticələnirdi. Beləliklə, proses uşaqların inkişafına dəzavantaj yaradır və onların gələcək imkanlarını məhdudlaşdırırdı. 1992-

ci ilin mayında döyüşlər zamanı Sədərəkdə rayon xalq təhsil şöbəsinin binası tanınmaz hala salınmışdı. Sinif otaqları uçulub dağıdılmış, təkcə bir sinif otağında raket mərmisi 14-dən artıq kompüteri sıradan çıxarmışdı (Azadlıq qəzeti, 1992, 10 iyun).

Bununla yanaşı hərbi təcavüz yaşayış məntəqələrində mədəni infrastrukturun dağılmasına, tarixi və mədəni dəyərlərin zərbə almasına da səbəb olurdu. Erməni hərbi təcavüzünün ən böyük təsiri isə humanitar məsələlərlə bağlı idi. Qida, enerji, su, tibbi yardımla bağlı döyüşlərin getdiyi dövrdə çoxsaylı çatışmazlıqlar var idi. Naxçıvan Muxtar Respublikasını təslim olmağa məcbur etməkdən ötrü Ermənistan sosial narazılıqlar doğura biləcək istiqamətləri hədəfə alırdı. Məsələn 1991-ci ilin dekabrın 8-də Ermənistan ərazisi ilə Naxçıvana məişət qazının verilməsi dayandırılmışdı. Ermənilər hesab edirdilər ki, kifayət qədər sərt iqlim şəraitinə malik olan Naxçıvanda məişət qazının verilişinin dayandırılması və ya bunda fasilələr yaranması kifayət qədər ciddi sosial təlatümlərə səbəb ola bilər. Belə vəziyyətdə 1992-ci il fevralın 24-də Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Naxçıvan Muxtar Respublikası Dövlət Kommunikasiya Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdi. Qərarda yazılırdı ki, qurum muxtar respublikanın elektrik enerjisinə, qaza olan təlabatını tam və sabit təmin etmək sahəsində zəruri tələblərin həyata keçirilməsi, muxtar respublikanı Azərbaycanın paytaxtı Bakı şəhəri və digər regionlarla, həmçinin qonşu ölkələrlə birləşdirən nəqliyyat xətlərinin yaranması işlərinin təşkil edilməsi məqsədilə yaradılır (Naxçıvan MR Dövlət Arxivi, Fond № 2, Siyahı № 6, İş № 1039, vərəq – 98). Ermənistan ərazisindən keçməklə muxtar respublikaya elektrik enerjisinin verilişi isə 1992-ci il iyulun 13-də dayandırılmışdı (Axundova, 2013). Həmin ilin iyulun 15-də Azərbaycan Respublikasının Milli Məclisi muxtar respublikanın enerji təchizatı ilə əlaqədar məsələni müzakirə etmiş və "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında yaranmış vəziyyət haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı" qəbul edilmişdir. Qərarda qeyd edilmişdi ki, hazırki şəraitdə Ermənistanın blokadada saxladığı Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinə olan ehtiyacın sadəcə olaraq 30%-ni ödəmək mümkündür. Dövlət və hökumət strukturlarına vəziyyəti düzəltmək üçün tapşırıqlar verilsə də (Qasımlı, Muradova, 2018) bu effektiv olmadı. Muxtar respublika özü-özünü xilas etmək məcburiyyətində idi. 1992-ci ilin payız və qış ayları bu cəhətdən daha ağır olmuş, ermənilər Naxçıvana gələn təbii qaz və elektrik xətlərini də kəsmişdilər. Həmin dövrdə muxtar respublikanın aldığı çox cüzi elektrik enerjisi fasilələrlə buradakı xəstəxanalara ötürülürdü. Hətta muxtar respublika Ali Məclisinin özü belə elektrik enerjisini növbə ilə almağa başladı. 1992-ci ilin sonu-1993-cü ilin əvvəllərində Türkiyə Cümhuriyyətinin İğdır bölgəsindən Naxçıvan Muxtar Respublikasına elektrik xətti çəkildi. 1991-1992-ci illərin döyüşləri muxtar respublikanın bir çox rayonlarında sadə vətəndaşların mənzil məişət şəraitinə də ciddi zərbə vurmuşdu. Ən çox zərər çəkən

rayon əsas döyüşlərin getdiyi Sədərək olmuşdu. Bununla yanaşı 1992-1993-cü il qış mövsümünün kifayət qədər sərt keçməsi də əhalinin sosial həyatına əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdi.

Nəqliyyatla bağlı da problemlər var idi. 1992-ci ilin mayında Sədərək və Şərur istiqamətində ağır döyüşlərin getdiyi dövrdə ermənilər Naxçıvan-Bakı istiqamətində hərəkət edən mülki təyyarələri də atəşə tutmağa başlamışdılar. May ayında Ermənistan Naxçıvan Muxtar Respublikası rəhbərliyinə artıq mülki təyyarələrin bu ölkənin hava məkanından təhlükəsiz uçuşuna təminat vermədiyi ilə bağlı xəbərdarlıq etmişdi. Belə vəziyyətdən çıxmaq üçün İran İslam Respublikası ilə danışıqlar aparılmış, Bakı-Naxçıvan-Bakı reyslərinin İranın hava məkanı vasitəsilə həyata keçirilməsinə başlanılmışdı (Yaqubov, 1995). Xəstəxanaların maddi texniki vəziyyəti kifayət qədər acınacaqlı idi. Ən ağır döyüşlərin getdiyi Sədərək rayon xəstəxanası 12 min nəfər əhaliyə xidmət etməli olsa da, cəmi 25 çarpayılıq idi. Xəstəxananın yerləşdirildiyi binada nə kanalizasiya, nə də istilik sistemi var idi. Sədərək xəstəxanasında cəmi 4 həkim çalışırdı (Aydınlıq qəzeti, 1993, 17 sentyabr). Muxtar respublikanı ağır vəziyyətdən çıxarmaq üçün həm ölkənin ayrı-ayrı bölgələrində işlər aparılır, həm də xarici ölkələrdən yardımların alınması üçün cəhdlər göstərilirdi. Həmin dövrdə Gəncədə Naxçıvana Yardım Xeyriyyə Cəmiyyəti yaradılmışdı. Heydər Əliyevin tapşırığı ilə bir neçə dəfə xüsusi dövlət əhəmiyyətli tapşırıqların yerinə yetirilməsi üçün göndərilmiş Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin əks-kəşfiyyat xidmətinin rəsiri Urfullah Qurbanovun bu prosesdə mühüm rolu olmuşdur.

İşğal və blokadanın yaratdığı problemlərdən biri də informasiya təhlükəsizliyi ilə bağlı idi. Ermənistanın I Qarabağ müharibəsində istifadə etdiyi əsas metodlar əvvəlcədən müəyyən rayonlar ətrafında informasiya baxımından ajotaj yaratmaq, yalan və qorxu törədən məlumatlar yaymaq, əhalini gərgin psixoloji həddə çatdıraraq sonradan həmin əraziləri işğal etmək olmuşdur. Oxşar taktikanın Naxçıvana qarşı da tətbiqi üçün cəhdlər göstərilirdi. Tarixşünaslıqda diqqəti cəlb edən məsələlərdən biri Gorus rayonu ərazisində yerləşən Üçtəpə radioteleötürücü stansiyasından xətlərin ermənilər tərəfindən kəsilişi və Azərbaycan televiziyası və radiosunun Naxçıvan ərazisinə ötürülməsi ilə bağlı problemlərin yaranması ilə bağlıdır. Müxtəlif tədqiqatçılar bununla bağlı müxtəlif tarixləri göstərirlər. Dövrün hadisələrinin təhlili bir neçə versiya üzərində dayanmağa imkan verir. Aydın olur ki, stansiyadan radiotele dalğaların ötürülməsi bir neçə dəfə kəsilmiş, bu, adətən tərəflər arasında sərhədboyu zonada toqquşmaların güclənməsi ərəfəsində və ya dövründə baş vermişdir. Gərginliyin səngiməsindən sonra radioteleötürücünün fəaliyyətini müəyyən qədər də olsa bərpa etmək mümkün olmuş, 1991-ci ilin sentyabrın 19-20-də isə həm Üçtəpədən transliasiya tamamilə dayandırılmış, həm də Şuşa-Naxçıvan radio rele xəttinin Batabatda yerləşən Biçənək aralıq stansiyası tamamilə dağıdılmışdı. Bununla da Ermənistan ərazisi vasitəsilə dalğaların ötürülməsi prosesi tamamilə

dayanmışdı (Naxçıvan MR ərazisində televiziya və radio verilişlərinin yayımı tarixindən, 2004). Yuxarıdakı qeydlərdən də aydın olduğu kimi, ermənilər Naxçıvanı tamamilə informasiya blokadasına almaq üçün nəinki Ermənistan ərazisində, muxtar respublikanın öz ərazisində yerləşən stareteji təyinatlı nöqtələri də ələ keçirməyə cəhdlər etmişdilər. 1991-ci ilin sentyabrı 20-də 60-a yaxın erməni silahlısının Qarakilsə (Sisyan) istiqamətindən Şahbuz rayonunun Batabat aşırımı istiqamətindən hücum etmələrində məqsəd də Biçənək teleradioötürücü stansiyasını tutmaq olmuşdur (Cabbarlı, 2015). Stansiyanın Naxçıvandan olan müdafiəçilərinin əlində sadəcə olaraq avtomatlar, erməni silahlı dəstələrinin əlində isə qrantamiyotlar və qranatlar var idi. Ermənilər teleötürücünün binasını partlatmaq üçün əvvəlcə binaya qranatlar atmışdı. Bu istiqamətdə olan azsaylı müdafiəçilər ətrafa yayılaraq ermənilərlə atışmış, az sonra Şahbuz rayonunun polis qüvvələrinin gəlməsi düşməni geri çəkilməyə məcbur etmişdi (Əliyeva, 2009).

Muxtar respublikaya Heydər Əliyevin rəhbərlik etməyə başlamasından sonra bu istiqamətdə ölkə səviyyəsində informasiya boşluğunun yaranmamasından ötrü müxtəlif addımlar atılmışdı. Bununla bağlı müvafiq dövlət orqanlarına xüsusi tapşırıqlar verilmişdi. Naxçıvan həqiqətlərinin ölkənin paytaxtına və regionlarına yayılması üçün müxtəlif şəxs və cəmiyyətlərin gücündən istifadə edilirdi. Eyni zamanda Azərbaycan Dövlət Telelviziyasının xəbərləri videokasetlərə köçürülərək Naxçıvana gətirilir, bir gün sonra isə Naxçıvan televiziyası ilə efirə təqdim olunurdu. 1992-ci ilin martında Naxçıvan Ali Məclisinin Qərarı ilə muxtar respublikanın Bakıda daimi nümayəndəliyi açıldı. Həsən Zeynalov Naxçıvan Muxtar Respublikasının Bakıda daimi nümayəndəsi təyin edildi. Belə bir nümayəndəliyin yaradılması koordinasiyalı fəaliyyətin təşkili, Naxçıvana qarşı erməni təcavüzünə dair məlumatların Bakıdakı müvafiq instansiyalara daha sürətli və dəqiq şəkildə çatdırılması üçün önəmli idi.

Heydər Əliyev muxtar respublikanın informasiya blokadası ilə bağlı problemlərin həlli üçün Türkiyə və İran kimi qonşu dövlətlərlə danışıqlar aparmışdı. 1992-ci ilin martın 24-də Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq protokolu imzalanmış, sənədin 5-ci maddəsinə əsasən TRT-nin televiziya verilişlərinin Naxçıvan Muxtar Respublikasında yüksək səviyyədə yayımlanması üçün Türkiyə tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu. Sənəddə həmçinin qeyd edilirdi ki, Naxçıvan tərəfi tələb etdikdə TRT xüsusi verilişlər verəcəkdir.

İnformasiya blokadasını yarmaq, Ermənistanın Naxçıvan Muxtar Respublikasına hərbi təcavüzünü faktlarla ifşa etmək üçün Heydər Əliyev müxtəlif xarici ölkələri təmsil edən jurnalistləri dəvət edir, onların ən qaynar döyüş nöqtələrindən birbaşa məlumat almalarını təmin edirdi. 1992-ci ilin mayında dünyanın 50-dən çox ölkəsindən dəvət edilmiş jurnalistlər Sədərəkdə baş vermiş

hadisələr barədə beynəlxalq ictimaiyyətə operativ və obyektiv məlumat çatdırmağa nail olmuşdular. Muxtar Respublikanın Səhiyyə Nazirliyi isə Ermənistanın kimyəvi silahlardan istifadə etməsi faktını aşkarlamış, bu barədə Rusiyanın və digər ölkələrin kütləvi informasiya vasitələrinə məlumat çatdırmışdı. Məsələ ilə bağlı xüsusi laboratoriyada əldə olunmuş məlumatlar BMT-nin Naxçıvana gəlmiş nümayəndələrinə təqdim edilmişdi (Azadlıq qəzeti, 1992, 10 iyun). Azərbaycan televiziyasının verilişlərinin Naxçıvanda yayımlanması üçün problemlərin əsaslı şəkildə aradan qaldırılması isə yalnız 1996-cı ildən sonra mümkün olmuşdu. Həmin ildə Heydər Əliyevin səyi nəticəsində "Türksat" peyk rabitə sistemində Azərbaycan televiziyasının Naxçıvan Muxtar Respublikasına ötürülməsi üçün kanal ayrılmışdı.

**Nəticə**

Beləliklə, bütün təhdidlərə və təzyiqlərə rəğmən Ermənistan və onu dəstəkləyən qlobal erməni lobbisi 1988-1993-cü illərdə Naxçıvanın işğalını həyata keçirə bilmədi. Təhlillərdən də aydın olduğu kimi, hərbi təcavüz və blokadanın yaratdığı iqtisadi problemlər kifayət qədər ciddi idi. Elektrik və təbii qazın verilişində ciddi problemlər var idi, çörək növbələri gündəlik normaya çevrilmişdi. Bütün bunlara baxmayaraq Naxçıvan əhalisi iqtisadi çətinliklərə dözməyə, muxtar respublikanın müdafiəsini davam etdirməyə çalışırdı. Muxtar Respublika rəhbərliyi və müvafiq strukturları iqtisadi problemlərin həlli üçün ən müxtəlif üsullardan istifadə etməyə çalışırdılar. Ölkədə siyasi səbatsızlığın və anarxiyanın yarandığı şəraitdə iqtisadi vəziyyət daha də gərginləşirdi. Belə vəziyyətdə qonşu dövlətlərin imkanlarından istifadə edilirdi. Tədqiqatlardan da göründüyü kimi, Ermənistanın hərbi təcavüzünün qarşısının alınmasında olduğu kimi, muxtar respublikanın iqtisadi çətinliklərdən də xilas edilməsində Türkiyə Cümhuriyyətinin böyük rolu olmuşdur.

Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində ölkə səviyyəsində yaranmış iqtisadi böhran Naxçıvan Muxtar Respublikasına, o cümlədən buradakı əhalinin iqtisadi vəziyyətinə və sosial statusuna ciddi təsirlər göstərmişdir. Ermənistanın hərbi təcavüz siyasəti və blokada tətbiq etməsi Naxçıvan Muxtar Respublikasının energetika, nəqliyyat və digər sahələrdə böyük iqtisadi potensialına ciddi zərbə vurmuşdu. Lakin Naxçıvan əhalisi həm iqtisadi, həm də sosial şərtlərin ağırlığına təmkinlə yanaşmış, Ermənistanın hərbi təcavüzünə qarşı mərdliklə dayanmışdır.

**Ədəbiyyat Siyahısı**

Axundova, E. (2013). *Şəxsiyyət və zaman.* CBS.

Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında 1992-ci il avqust ayının 24-də Tehran şəhərində imzalanmış müxtəlif sahələrdə əməkdaşlıq protokolunun 13-cü maddəsinin həyata keçirilməsi tədbirləri haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. Naxçıvan MR Dövlət Arxivi, Fond № 2, Siyahı № 6, İş № 1039.

Cabbarlı, Ə. (2015). *Heydər Əliyev və Naxçıvan tarixi məsələləri*. Əcəmi.

Əhmədov, E. İ. (2012). *Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011).* Ensiklopedik nəşr Letterpres.

Əliyev, Ə.İ. (1997). *Əlincə yaddaşı: Naxçıvan 1914-1992.* Gənclik.

Əliyeva, H. (2009). *Naxçıvan necə döyüşdü, müdafiə olundu.* Şirvannəşr.

Əmrahqızı, E. (1992, iyun 10). *Naxçıvan: arada üçüncü qüvvələr var.* Azadlıq qəzeti.

Hacıyev, İ. M. (2012). *Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri.* Əcəmis.

Hacıyev, İ. M. (2016). *Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında.* Elm və təhsil.

Xəlilqızı, Ə. (1993, sentyabr 17). *Hansısa kosmonvat Naxçıvan torpağının dünyanın heç bir yerinə bənzəmədiyini söyləyib.* Aydınlıq qəzeti.

İbrahim, Q. (1991, aprel 4). *Azad olmaq istəyirik. Naxçıvan Avtomobil Yolları İdarəsi Birləşmiş Həmkarlar Komitəsinin sədri Mikayıl Rəhimovla müsahibə.* Azadlıq qəzeti.

Kəlbizadə, E. H. (2012). XX əsrin son onilliyində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin inkişafı tarixindən. *Tarix və onun problemləri,* 2, 331-336.

Qasımlı, M., Muradova, B. (2018). *Azərbaycan parlamentarizmi tarixi.* (C. 2). Mütərcim.

*Qayıdış (1990-1993).* (2008). Azərbaycan.

Qurbanov, U. (2023, aprel 4). *Xüsusi dövlət əhəmiyyətli tapşırıq* (III hissə). Şərq qapısı.

Qurbanov, U. (2023, avqust, 04). *Dövlət əhəmiyyətli xüsusi tapşırıq*. Xalq qəzeti.

Məmmədov, M.Y. (2011). *Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı.* Şirvannəşr.

Mineral sular zavodu işə düşdü. (27 iyul 1993). *Ədalət qəzeti,* s. 3.

Naxçıvan MR Baş nazirinin birinci müavini, dövlət iqtisadiyyat və planlaşdırma komitəsinin sədri E.İbrahimovun Azərbaycan Respublikasının Baş Nazirinə məktubu. 21 fevral 1994-cü il. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), Fond 3189, siyahı 9, iş 27.

Naxçıvan MR ərazisində televiziya və radio verilişlərinin yayımı tarixindən. Naxçıvan MR ərazisində televiziya və radio vericiləri haqqında məlumat kitabçası /Tərt. ed. N.B.Abuzərov, Ə.A.Mikayılov, İ.R.Sadiqov. –Naxçıvan: RİTN, -2004.1-4.

Naxçıvan Muxtar Respublikası Dövlət Kommunikasiya Komitəsinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı. Naxçıvan MR Dövlət Arxivi, Fond № 2, Siyahı № 6, İş № 1039, vərəq-98.

Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında Naxçıvan MR Ali Məclisinin qərarı. Naxçıvan MR Dövlət Arxivi, Fond № 2 , siyahı № 6, iş № 1039, vərəq-17-19.

*Naxçıvan tarixi.* (2015). (C.3). Əcəmi.

Shironin, V. (1997). KGB-TSRU. *Taynyye istoki perestroyki* (Elektronnaya versiya knigi). Yaguar.

Yaqubov, Ş. (1995). *Qətiyyətin təntənəsi.* Səhər qəzetinin nəşri.